# MÜBARİZ KEŞİKDƏ

DİN

12 sentyabr 2019-cu il
Cümə axşamı

№ 35 (3450)

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## PREZİDENT İLHAM ƏLİYEV TÜRKDİLLİ DÖVLƏTLƏRİN XÜSUSİ XİDMƏT ORQANLARININ RƏHBƏRLƏRİNİ QƏBUL EDİB

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 6-da türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul edib.

Dövlətimizin başçısı Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə edib. İclasın ikitərəfli və çoxtərəfli əməkdaşlığımızla bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyən Prezident İlham Əliyev ölkələrimiz arasında etimada əsaslanan çox sıx qardaşlıq münasibətlərinin mövcud olduğunu dedi. Dövlətimizin başçısı ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək, bu təmasların təhlükəsizliyin və regional sabitliyin təmin olunmasındakı rolunu



vurğuladı. Azərbaycanın regional əməkdaşlıq proseslərində fəal iştirak etdiyini deyən Prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsi üçün səylərin bundan sonra da davam etdiriləcəyini bildirdi. Dövlətimizin başçısı iclasda müzakirə edilən məsələlərin ölkələrimizin təhlükəsizliyinin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Görüşdə çıxış edən qonaqlar Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildirdilər və bu tədbirin ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin və sıx əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyini vurğuladılar.

## PREZİDENT İLHAM ƏLİYEVİN İŞTİRAKI İLƏ BAKIDA "ŞİMAL-2" ELEKTRİK STANSİYASI İSTİSMARA VERİLİB

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakıda "Şimal-2" elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev, Yaponiyanın Xarici İşlər nazirinin parlamentar müavini Kenji Yamada, Yaponiyanın ölkəmizdəki səfiri Teruyuki Katori dövlətimizin başçısına burada görülən işlər barədə məlumat veriblər.

Qeyd edək ki, 1950-ci illərdə iki mərhələdə istifadəyə verilən "Şimal" Elektrik Stansiyasının 1988-ci ildə birinci, 1998-ci ildə ikinci növbəsi tam köhnəldiyindən istismardan çıxarılmışdı. 1998-ci ildə ulu öndər Heydər Əliyev Yaponiyaya səfəri zamanı 400 meqavatlıq "Şimal-1" Elektrik Stansiyasının tikintisi üçün ölkəmizə investisiya cəlb olunmasına nail olub. Beləliklə, 2000-ci ildə əsası qoyulan 400 meqavatlıq "Şimal-1" stansiyası 2002-ci ildə istismara verilib. 2011-ci ildə isə Prezident İlham Əliyevin iştirakı ilə ərazisi 104,9 hektar, gücü 400 meqavatlıq "Şimal-2" Elektrik Stansiyasının təməli qoyulub. Ötən ilin payızından başlayaraq, "Şimal-2" Elektrik Stansiyasının tikinti və quraşdırma prosesləri sürətləndiriləcək 2019-cu ildə işlər tamamlanıb.

Ümumi qoyuluş gücü 800 MVt olan "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının vahid mərkəzdən idarə edilməsi, istismar prosesində əməliyyatların operativliyinin təmin olunması və ekstremal qəza vəziyyətlərində işdə pozuntuların operativ aradan qaldırılması nəzərə alınaraq ərazidə Mərkəzi İdarəetmə Binası inşa edilib.

Stansiyada Yaponiyanın "Mitsubishi" şirkətinin istehsalı olan 138 MVt gücündə buxar, 267 MVt gücündə qaz turbinləri, 560 MVA gücündə elektrik generatoru və onların köməkçi sistemləri quraşdırılıb. Enerji blokunda istehsal olunan elektrik enerjisi 480 MVA gücündə olan blok transformatordan qapalı tipli yarımstansiya vasitəsilə elektrik veriliş xətlərinə ötürülür. Müxtəlif gərginlik sinfinə malik olan paylayıcı qurğular arasında əlaqəni təmin etmək üçün 2 avtotransformator quraşdırılıb. Burada istehsal olunan elektrik enerjisinin ötürülməsi məqsədilə Abşeron regionunda 220 kV-luq dairəvi sxem qurulub, "Şimal" Elektrik Stansiyasının "Sumqayıt ES" və "Abşeron YS" ilə əlaqələndirilməsi üçün 65 kilometr uzunluğunda 220 kV-luq dörd hava elektrik verilişi xətti istismara verilib. Qəzarejimlərində stansiyanın vacib sistemlərinin elektrik enerjisi ilə qidalandırılması üçün qəza dizel generatoru quraşdırılaraq xüsusi sərfiyyat sxeminə qoşulub və avtomatik ehtiyatdan qoşulması təmin edilib.

Prezident İlham Əliyev "Şimal-2" Elektrik Stansiyasını işə salıb.

Hazırda ən yüksək faydalı iş əmsalına malik olan "Şimal-1" və "Şimal-2" elektrik stansiyaları birlikdə respublika üzrə elektrik enerjisi istehsalının 20 faizini, Bakı və Abşeron yarımadası üzrə 40-50 faizini təşkil edəcək. "Şimal" Elektrik Stansiyası enerjisistemin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına əsaslı təsir etməklə yanaşı, il ərzində 77 milyon kubmetr təbii qazın qənaətinə və regionlardan Bakı şəhərinə verilən enerjinin miqdarının 20 faiz azalması nəticəsində elektrik enerjisinin uzaq məsafədən ötürülməsindən yaranan 199 milyon kVts elektrik enerjisi itkisinə qənaət olunmasına imkan yaradacaq. Bundan başqa, "Şimal" Elektrik Stansiyası 57,4 faiz faydalı iş əmsalına malikdir ki, bu da Cənubi Qafqaz regionunda ən yüksək faydalı iş əmsalı deməkdir. Elektrik stansiyası il ərzində 3,2 milyard kVts elektrik enerji istehsal edəcək və hər bir kVts elektrik enerjisinin buraxılışına 214,3 qram şərti yanacaq sərf ediləcək ki, bu da enerjisistemin ümumi göstəricisindən 65 qram azdır.

Dövlətimizin başçısı stansiyanın kollektivi ilə xatirə şəkli çəkdirib.

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 4-də Rövşən Raqif oğlu Məmmədovun "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsindən azad edilib Cəmiyyətin sədri təyin olunması haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı sentyabrın 4-də Əminə Dilbazinin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri sentyabrın 5-də milli bayram-Müstəqillik Günü münasibətilə Braziliya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Jair Bolsonaruya təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Sentyabrın 5-də Azərbaycan Prezidenti İlham Əliyev Şimali Makedoniyanın milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Stevo Pendarovskiyə təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Sentyabrın 5-də dövlətimizin başçısı Tacikistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Emoməli Rəhmona təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri sentyabrın 5-də Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının XXII iclasının iştirakçılarına təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 5-də BP-nin Direktorlar Şurasının sədri Helqe Lundun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı sentyabrın 9-da 2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri sentyabrın 9-da Gürcüstanın Baş Naziri vəzifəsinə seçilməsi münasibətilə zati-aliləri cənab Giorgi Qaxariyaya təbrik məktubu göndərib.**

## İNKİŞAFIN, SABİTLİYİN AZƏRBAYCAN NÜMUNƏSİ

Ölkəmizdə dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması ümummilli liderin müəyyən etdiyi siyasi kursun layiqli davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən dövrün tələbinə uyğunlaşdırılaraq mükəmməl səviyyədə davam etdirilməsi sayəsində mümkün olmuşdur. Ölkə başçımızın yürütdüyü uğurlu və dayanıqlı siyasət sabitliyin, əmin-amanlığın qorunub-saxlanmasına, xalqın rifah halının yüksəldilməsinə xidmət edir. Məhz bu səbəbdən də ölkəmizdə güclü iqtisadiyyat yaradılıb ki, bu da dövlətin sosial siyasətinə öz müsbət təsirini göstərmişdir...

## ŞƏRƏFLİ TARİXİMİZ, ƏBƏDİ QARDAŞLIĞIMIZ

1918-ci il martın 30-da Bakıda başlanan kütləvi qırğınlar 12 mindən artıq günahsız adamın, o cümlədən çoxlu sayda qoca, qadın və uşağın amansızcasına öldürülməsi ilə nəticələndi. Faciənin miqyası yalnız Bakı şəhəri ilə məhdudlaşmadı. Bu ərəfədə Şamaxıda, Göyçayda, Hacıqabulda, Qubada, Xaçmazda, Salyanda , Lənkəranda, Muğan bölgəsində, Dağlıq Qarabağda və başqa bölgələrdə erməni-daşnak vandalları tərəfindən qətlə yetirilən insanların sayı 50 mindən artıq idi...

1994-cü il sentyabrın 20-də Bakıdakı "Gülüstan" sarayında öz müstəsna əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını almış müqavilə bağlandı. Dənizin dərinliyində yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsi və məhsulun pay bölgüsü haqqında 400 səhifəlik müqavilə 4 dildə tərtib edilmişdi...

*Bax səh.2.*

# ŞƏRƏFLİ TARİXİMİZ, ƏBƏDİ QARDAŞLIĞIMIZ

**1918-ci il martın 30-da Bakıda başlanan kütləvi qırğınlar 12 mindən artıq günahsız adamın, o cümlədən çoxlu sayda qoca, qadın və uşağın amansızcasına öldürülməsi ilə nəticələndi. Faciənin miqyası yalnız Bakı şəhəri ilə məhdudlaşmadı. Bu ərəfədə Şamaxıda, Göyçayda, Hacıqabulda, Qubada, Xaçmazda, Salyanda , Lənkəranda, Muğan bölgəsində, Dağlıq Qarabağda və başqa bölgələrdə erməni-daşnak vandalları tərəfindən qətlə yetirilən insanların sayı 50 mindən artıq idi.**

Türkiyə dövləti Azərbaycanda həyata keçirilən erməni-bolşevik soyqırımına laqeyd qalmadı. Qafqaz İslam Ordusunun komandanı vəzifəsinə 29 yaşına baxmayaraq, böyük döyüş təcrübəsi olan cəsur sərkərdə Nuru Paşa təyin olundu. Ona Sultan tərəfindən növbədənkənar general-mayor rütbəsi verildi. Nuru Paşa Müdafiə naziri Ənvər Paşanın qardaşı idi.



O, 1918-ci ilin mayında Azərbaycana gələrək Qafqaz İslam Ordusunun yaradılmasında və təşkilatlanmasında, nəhayət, Azərbaycanın düşmənlərdən təmizlənməsində böyük rol oynadı.

Nuru Paşanın rəhbərlik etdiyi ordu 1918-ci il iyunun 17-dən sentyabrın 14-dək biri-birinin ardınca uğurlu döyüş əməliyyatları apararaq torpaqlarımızı bolşevik-daşnak qüvvələrindən təmizlədi və həmin ilin 15 sentyabrında Bakı azad edildi. Türkiyəli qardaşlarımız bu döyüşdə 1130 şəhid verdilər.

Bakı şəhəri azad edildikdən sonra Qafqaz İslam Ordusunun hissələri Qarabağa göndərildi. Qarabağın daşnaklardan təmizlənməsi əməliyyatına başlanıldı və uğurlu döyüşlərlə qoşunlar Şuşaya daxil olaraq şəhərdə Azərbaycan bayrağını qaldırdılar. Lakin Türkiyənin Birinci Dünya müharibəsində məğlub olması bu işi yarımçıq qoydu. 1918-ci il oktyabrın 30-da imzalanmış Mudros müqaviləsindən sonra türkiyəli qardaşlarımız Azərbaycanı tərk etmək məcburiyyətində qaldılar.

Nuru Paşa 1920-ci il aprel çevrilişindən sonra da gizli olaraq bir qrup zabitilə Şuşaya gəldi, bolşeviklərə qarşı döyüşlər apardı, Aran Qarabağ və Zaqatala bölgələrində xalqı bolşeviklərə qarşı üsyana qaldırdı.

Bakının azad olunması Azərbaycan-Türkiyə qardaşlığını bir daha isbatlayan böyük bir tarixi hadisədir. Sovet əsarəti illərində bu hadisənin əhəmiyyətini məqsədli şəkildə unutdurmağa çalışsalar da, xalq qardaşlarının qəhrəmanlığını könlündə yaşatdı, onu heç bir zaman unutmadı.

***Hər il Bakının azad olunmasının ildönümü tədbirləri Şəhidlər xiyabanında ucaldılmış möhtəşəm abidənin önündə anım mərasimi ilə başlanır.***

**1994-cü il sentyabrın 20-də Bakıdakı "Gülüstan" sarayında öz müstəsna əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını almış müqavilə bağlandı. Dənizin dərinliyində yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsi və məhsulun pay bölgüsü haqqında 400 səhifəlik müqavilə 4 dildə tərtib edilmişdi.**



"Əsrin müqaviləsi"ndə 8 ölkədən (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 şirkət ( Amoko, BP, Mak Dermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edirdi. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı.

"Əsrin müqaviləsi" imzalanandan sonra onun iştirakçıları işçi strukturlar – Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) və Məsləhət Şurası yaratdılar. Həmin strukturlar hüquqi səlahiyyət qazandıqdan, yəni 1994-cü il dekabrın 2-də Azərbaycan Prezidenti xüsusi fərman imzalayandan sonra fəaliyyətə

# ƏSRİN HADİSƏSİ, GƏLƏCƏYİMİZİN TƏMİNATI

başladılar. 1994-cü il dekabrın 12-də Milli Məclis "Əsrin müqaviləsi"ni ratifikasiya etdi.

Ümummilli lider mərasimdə iştirak edənlərə bu böyük hadisənin tarixindən, böyük uğurlar və faydalı nəticələrlə zəngin olan Bakı neft sənayesinin tarixindən söhbət açdı.

"Əsrin müqaviləsi" tarixə ulu öndər Heydər Əliyevin Prezident hakimiyyəti siyasətində baza prioritetini-neft strategiyasını müəyyən etmiş ilk iri iqtisadi sənəd kimi düşmüşdür. Lakin "Əsrin müqaviləsi"nin əhəmiyyəti hələ o vaxt da təkcə gözlənilən merkantil səmərə ilə məhdudlaşmırdı. 1990-cı illərin əvvəlində Azərbaycan ümummilli liderin layihəsi əsasında fəlakətli vəziyyətdən çıxırdı. O illərdə Azərbaycan dövləti tarixi dövlətçiliyinin varisi hüquqlarını həyata keçirməyə, təkcə özünün mövcud olduğu qısa zaman kəsiyi üçün deyil, tarixinin bütün təcrübəsi üçün məsuliyyət daşımağa məhkum idi. Bu mənada "Əsrin müqaviləsi" ayrı-ayrı dövlətlərin əməkdaşlığı, Heydər Əliyev siyasətinin əsas məqsədinə-ictimai rifaha xidmət edən dəyərləri əks etdirən dünyagörüşü aktına çevrildi.

"Əsrin müqaviləsi"nin reallaşdırılması indi, neçə illər keçəndən sonra, çox düzgün olaraq, Azərbaycanın malik olduğu potensial barədə düşünməyə vadar edir. Bu qüvvə zəngin enerji ehtiyatlarından, millətin iradə gücündən və böyük amallar uğrunda mücadiləsindən asılıdır.

***Azərbaycan xalqının taleyində əvəzsiz xidməti olan, ulu öndərin, cənab Prezidentin misilsiz səyləri, zəhməti ilə ərsəyə gələn bu tarixi hadisə özünü həyatının bugünkü möhtəşəm tablosunda parlaq şəkildə göstərir. Dünyanın nəzərini Azərbaycana çəkən "Əsrin müqaviləsi" hələ onu çox illər heyrətləndirəcəkdir.***

*A.Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2019-cu il sentyabr ayının 28-də Lənkəran Şəhər-Rayon Polis Şöbəsində Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.**

**Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.**

**Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.**

Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov tərəfindən 2019-cu il sentyabr ayının 21-də Şirvan Şəhər Polis Şöbəsində Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNDƏN

Sentyabrın 4-də Lənkəran şəhərində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanovun və İran İslam Respublikasının Daxili İşlər Nazirliyinin Narkotiklərlə Mübarizə Xidmətinin rəisi, briqada generalı Məhəmməd Zahedianın rəhbərlik etdikləri nümayəndə heyətlərinin ikitərəfli əməkdaşlıq çərçivəsində növbəti görüşləri olub.



Polis general-mayoru H.Aslanov iranlı həmkarlarına ölkəmizdə ümumən cinayətkarlığa, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizədən və həyata keçirilən əməliyyat-profilaktik tədbirlərdən, əldə olunan nəticələrdən danışıb.

Görüşdə hər iki qonşu dövlətin hüquq-mühafizə orqanları arasında sıx əməkdaşlığın müsbət nəticələri vurğulanıb, narkotik vasitələrin qanunsuz dövriyyəsinin dost və qonşu xalqlar üçün narahatlıq yaratdığı qeyd edilib, bu sahədə qarşılıqlı əlaqələrin, birgə məlumat mübadiləsinin bundan sonra da davam etdirilməsi perspektivləri müzakirə olunub.

Briqada generalı Məhəmməd Zahedian hüquq-mühafizə fəaliyyəti sahəsində təcrübə və məlumat mübadiləsinin əhəmiyyətini, cinayətkarlıqla mübarizədə Azərbaycanın hüquq-mühafizə orqanları, o cümlədən Daxili İşlər Nazirliyi ilə əməkdaşlıqda maraqlı olduqlarını qeyd edib, belə görüşlərin iki dövlətin Daxili İşlər nazirlikləri arasındakı əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verəcəyini diqqətə çatdırıb.

Səmimi və işgüzar şəraitdə keçən görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

# İNKİŞAFIN, SABİTLİYİN AZƏRBAYCAN NÜMUNƏSİ

**Ölkəmizdə dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması ümummilli liderin müəyyən etdiyi siyasi kursun layiqli davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən dövrün tələbinə uyğunlaşdırılaraq mükəmməl səviyyədə davam etdirilməsi sayəsində mümkün olmuşdur. Ölkə başçımızın yürütdüyü uğurlu və dayanıqlı siyasət sabitliyin, əmin-amanlığın qorunub-saxlanmasına, xalqın rifah halının yüksəldilməsinə xidmət edir. Məhz bu səbəbdən də ölkəmizdə güclü iqtisadiyyat yaradılıb ki, bu da dövlətin sosial siyasətinə öz müsbət təsirini göstərmişdir.**

Ölkə başçımız cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamlar əsasında reallaşdırılan böyük sosial tədbirlər paketi bütün kateqoriyalardan olan vətəndaşlarımızın rifah halını yüksəldib. Bu ilin əvvəlində təsdiqlənən böyük sosial paket 4 milyondan çox insanı əhatə edir. Birinci dəfə 40, ikinci dəfə də 40 faiz olmaqla minimum pensiya əhəmiyyətli dərəcədə artırılıb. Minimum əməkhaqqı da təxminən 2 dəfə qaldırılıb. Eyni zamanda, problemli kreditlərlə bağlı olan məsələlər də öz həllini tapıb. Həmçinin, 300 mindən çox əlilliyi olan şəxslərin, 500 minə qədər məcburi köçkünün, 100 mindən artıq tələbə və gəncin, ümumilikdə 1,3 milyon ölkə vətəndaşının gəlirləri çox əhəmiyyətli şəkildə artırılıb.

Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin və maddi-rifah halının yaxşılaşdırılması, məşğulluğunun artırılması dövlət siyasətinin prioritetlərindəndir. Dövlət başçımızın müəyyənləşdirdiyi strategiyaya əsasən, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində mühüm addımlar atılır, onların sosial müdafiəsi gücləndirilir. Son illər məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə aylıq müavinətləri artırılıb, onlar üçün xüsusi olaraq, şəhərcik və qəsəbələr salınaraq tamtəmirli mənzillərlə təmin ediliblər.

Bu il fevralın 26-da Prezident cənab İlham Əliyevin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında imzaladığı sərəncama əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılıb.

Ülu öndərin ali ideyalarını üstün tutaraq, dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın əhalinin rifah halının yaxşılaşdırılması, milli-mənəvi dəyərlərin qorunması istiqamətində gerçəkləşən layihələrdə müstəsna xidmətləri vardır. Cəmiyyətdə könüllü sosial müdafiə, xeyriyyəçilik, sosial tərəfdaşlıq, milli özünəməxsusluğu şərtləndirən xüsusiyyətlərimizin qorunmasına çalışan Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun rəhbəri olaraq, ötən 15 ildə cəmiyyətin tərəqqisinə xidmət edən strateji əhəmiyyətli layihələri əzmlə həyata keçirmişdir.

Qaçqınların və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması, sağlamlıqlarının qorunması, məşğulluğunun artırılması və digər məsələlər Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdə önəmli yer tutur. Məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması məqsədilə onlar üçün son illər ərzində yüzdən çox şəhərcik və qəsəbə tikilib. 300 minə yaxın köçkün yeni mənzillərlə, fərdi evlərlə təmin edilib.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. 2005-ci ildən icrasına başlanılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 100 mindən çox şagirdin təhsil aldığı 500-dək məktəb binası inşa olunub və yenidən qurulub. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində isə 40-a yaxın uşaq müəssisəsi əsaslı şəkildə təmir edilib. "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları böyük rəğbətlə qarşılanır, öz müsbət nəticələrini verir. Bu layihələr çərçivəsində Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Reabilitasiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

Təməlində xalq-iqtidar birliyi dayanan, sabitliyin, əmin-amanlığın, ictimai təhlükəsizliyin yüksək peşəkarlıq və qətiyyətlə qorunduğu dinamik inkişafı, hərbi, sosial-iqtisadi tərəqqisi ilə Azərbaycan bu gün həqiqətən bütün dünyaya nümunə, örnəkdir. Çox xoşdur ki, bu ümumxalq işində müstəqil dövlətimizin təkrar uğurlarında bizim də payımız, əməyimiz var.

*İnformasiya bölməsi*



# BURDA DƏNİZ DƏ “ŞİRİN”DİR - “XƏZRİ” DƏ

**Həmkarlarımdan bir neçəsi dincəlmək üçün adətən, DİN-nin “Xəzri” İstirahət və Sağlamlıq Mərkəzini seçirdilər. Hər dəfə qayıtdıqdan sonra da bunun o qədər xoş və gözəl olduğundan danışırdılar ki, mən də bir dəfə orada olub bu deyilənləri görmək istədim.**

Və bu il övladlarımla birgə “Xəzri”yə üz tutduq.

İlk gün burada hər şey çox xoşumuza gəldi. Nahar vaxtı idi. Övladlarımla yemək üçün restorana düşdük. Burada hazırlanan dadlı yeməklərdən yeyib həyətə çıxdıq. Gözəl güllər, körpələr üçün salınmış park, futbol meydançası, trenajor zalı və ən əsası, dəniz...

Axşam şam yeməyindən sonra iş yoldaşımla bərabər uşaqları parka apardıq. Burada dincəlmək üçün Belarusdan gələn qonaqlarla tanış olduq. Biraz söhbət etdikdən sonra məlum oldu ki, o, Belarus Respublikasının əməkdar artisti Ramiz Şirinovdur. Bildirdi ki, hər il dincəlmək üçün Vətəni, “Xəzri”ni seçir. Deyir ki, dünyanın harasında olursa-olsun, Azərbaycan üçün darıxır, Vətənini bir il görməsə, yaşaya bilməz. Söhbət əsnasında bizim polis əməkdaşı olduğumuzu biləndə gözləri doldu. Səbəbini soruşanda, dedi ki, onun polis əməkdaşlarına böyük hörməti var. Həm də bizə, necə deyərlər, biraz da qohumluğun çatır. Bacısı oğlu polis polkovnikidir... “Hər il Azərbaycana gələndə ilk onunla görüşürdüm” deyib susdu. Sonra da az qala pıçıldadı: “İndi onun yoxluğu bizim üçün çox ağırdı”. Kim olduğunu öyrənmək istədik. Əvvəl demək istəməsə də sonradan onun mərhum həmkarımız Abdul Zərgərli olduğunu öyrəndik. Biz də kövrəldik. Axı, Abdul müəllimlə 22 il bir yerdə xidmət etmişdik, onu yaxından tanıyırdıq.

Ramiz müəllim keçmişdən qalan xatirələrini bizimlə bölüşdü. Onunla həmsöhbət olmaq bizim üçün çox xoş oldu.

*R.Əliyeva,*
*polis baş leytenantı*

# PAYIZ GƏLDİ...

**Məktəb illəri xatirələrlə, yadda qalan günlərlə doludur. Lakin mənim üçün ən unudulmazı ilk dəfə əlimə çanta alıb birinci sinifə getdiyim gündür. Körpə uşaq kimi məktəbə daxil olub, onu yetkin bir gənc kimi bitirdik…**

***Doğrudur, sonra bu hiss, həyəcan, nigarançılıq qarışıq maraq və gözləntilərimizi daha 10 il yaşadıq. Yaşaya-yaşaya da böyüdük- həm ağlımızla, həm də boyumuz və arzularımızla…***

***Üstündən illər keçib. İnanın, ilk dərs günü övladlarımı məktəbə apararında yenə o günlərin xoşbəxtliyini yaşayıram. Sevinirəm onlar üçün, duyğulanıram keçən həyatım, atalı günlərim üçün…***



***Bu yaxınlarda Polis Akademiyasında idim-yenicə kursant adını alan gənclər və onların valideynləri ilə görüşdə.***

***Bu coşqu mənə tanış idi. Həm də tələbə vaxtlarımdan…***



***Kim deyir ki, payız kədərli fəsildir. Əslində, payızı da, yazı da gözəlləşdirən, özəlləşdirən onda yaşananlardır…***

***Payız heç də kədərli fəsil deyil…***

***Məktəb müdriklik ocağımız, mənəvi beşiyimizdir. Məktəb bizim bu günümüz, sabahımız və gələcəyimizdir. Məktəbdə bizə təkcə oxumaq yox, yaşamağı, yaşatmağı.., Vətəni sevməyi öyrədiblər…***

**Ə.Ruhiyyə**

**REDAKSİYADAN**: 2019-2020-ci tədris ilinin əvvəlinə olan proqnoz göstəricilərinə əsasən, yeni tədris ilində respublikanın ümumi təhsil müəssisələrində ümumilikdə 1 milyon 525 min 16 şagird təhsil alacaq. Şagirdlərdən 714 min 259-u qız, 810 min 757-si isə oğlandır. Ümumtəhsil məktəblərinin I sinfində 164 min 234 şagirdin təhsil alacağı proqnozlaşdırılır.

Hazırda respublikada 322 ibtidai məktəb, 3 min 307 tam orta məktəb, 795 ümumi orta məktəb, 16 xüsusi tipli ümumi orta məktəb və 7 əyani-qiyabi (axşam) tam orta məktəb, o cümlədən 59 məktəb-lisey, 49 lisey, 15 gimnaziya və 14 inteqrasiya təlimli internat tipli gimnaziya olmaqla, ümumilikdə 4 min 447 məktəb fəaliyyət göstərir.

Yeni tədris ilinin əvvəlində Təhsil Nazirliyi tərəfindən təmir-tikinti işləri yekunlaşdırılmış 43 məktəb binası şagirdlərin istifadəsinə veriləcək. Onlardan 20-si yeni tikilən, 8-i əsaslı təmir olunan, 15-i isə modul tipli məktəbdir. 2019-cu ildə ümumilikdə respublika üzrə 25 yeni məktəb binasının tikintisi, 9 məktəbin əsaslı, 253 məktəbin cari təmiri, 24 rayonda isə 3520 şagird yerlik 50 modul tipli məktəbin istifadəyə verilməsi nəzərdə tutulur.

2019-2020-ci tədris ilinə dövlət ümumtəhsil müəssisələrinin I-XI siniflər üçün 322 adda 5 milyon 668 min 865 nüsxə dərslik və metodik vəsait çap edilib.

# QALİBLƏRİN SIRASINDA POLİS ÖVLADLARI DA VAR



**Bu yaxınlarda Macarıstanın Györ şəhərində gənclər və yeniyetmələr arasında kikboksinq üzrə WAKO – Avropa çempionatı keçirilib. Qitənin 39 ölkəsindən 2 mindən artıq idmançının qatıldığı bu mötəbər yarışda milli komandamız da təcrübəli idmançılarla təmsil olunub.**

Ölkəmizin yığma komandasının tərkibində təmsil olunan DİN İdman Cəmiyyətinin yetirmələri üçün də uğurlu olub. Belə ki, onlar ümumilikdə millimizin medal mücrüsünə 6 mükafat əlavə ediblər.

Təmsilçilərimizdən **Məhəmməd İmanov, Əkbər Əsədov, Elnur Mustafayev qızıl, Rüstəm Alışov, Xəyal Dadaşov** qızların mübarizəsində isə **Mohandes Turan** bürünc medal qazanıblar.

Qalibləri qəbul edən DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxetdinova bildirib ki, qaliblər arasında polis əməkdaşlarının övladları da var. Asayişin, sabitliyin keşiyində ayıq-sayıq dayanan polisin övladlarının həm də savadlı, vətənpərvər, o cümlədən idman arenalarında ölkəmizi layiqincə təmsil edənlər sırasında görmək çox sevindirici haldır. O, hər bir uğurun ölkəmizin idman ictimaiyyəti üçün dəyərli olduğunu diqqətə çatdırıb.

*Zeyni Hüseynov,*
*polis serjantı*

# YURDDA, CAHANDA SÜLH

**21 sentyabr Beynəlxalq Sülh Günü kimi qeyd olunur. Bu gün BMT-nin 30 noyabr 1981-ci ildə keçirilən iclasında 192 ölkənin yekdil qərarı ilə qüvvəyə minib. Yaşından, irqindən, milliyyətindən, dinindən və cinsindən asılı olmayaraq, Beynəlxalq Sülh Günü bütün planet adamları üçün çox vacibdir. Elə ölkəmiz üçün də bu günün əhəmiyyəti böyükdür. Torpaqlarımızın 25 ildən artıq müddətdə işğal altında olmasına baxmayaraq, münaqişənin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüquq çərçivəsində həllinin tərəfdarıyıq və bu istiqamətdə əməli işlər görülür.**



Beynəlxalq Sülh Günü ilə əlaqədar Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) 21 avqust - 21 sentyabr tarixlərini ölkəmizdə “sülh aylığı” elan edib. Bu münasibətlə hökumət və qeyri-hökumət təşkilatlarında konfranslar təşkil olunub, insan hüquq və azadlıqları ilə bağlı fikirlər səsləndirilib.

“Sülh aylığı” ilə bağlı daxili işlər orqanlarının hissə və bölmələrində də tədbirlər həyata keçirilib. Belə ki, peşə hazırlığı dərslərində beynəlxalq konvensiyalar, insan hüquq və azadlıqlarını təbliğ edən mövzularda məşğələlər təşkil olunub, yerlərdə fəaliyyət göstərən İctimai Şura üzvləri əhali arasında maarifləndirmə işləri aparıb, DİN-nin sosial şəbəkələrdəki rəsmi səhifələrində sözügedən mövzu ilə bağlı müxtəlif xarakterli reklam çarxları nümayiş etdirilib.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# BİR GÜNÜN BİR ANI





Suraxanı RPİ Post-Patrul Xidməti Bölüyünün əməkdaşları-**Etibar Yaqubov, Elşən Məmmədli, Ayxan Qocayev, Vüsal Heydərov və taqım komandiri, polis leytenantı İrşat Alxasovu** (soldan ikinci) sakinlər yaxşı tanıyırlar. Çünki onlar xidmət müddətinin böyük hissəsini ərazidə keçirirlər.

Problemi olanlar da onlara yaxınlaşır, məsləhət istəyənlər də...

***Kənardan baxanda bəzən adama elə gəlir ki, dəftərxanada işin həcmi o qədər də çox deyil. Amma, digər xidmət sahələrində olduğu kimi, burada da işləyən üçün asudə vaxt həmişə az olur.***

***Suraxanı RPİ-nin Dəftərxana müdiri, polis baş serjantı Gülarə Çavuş kimi...***

***İşə məsuliyyətli münasibəti, nizam-intizamı ilə seçilən bu xanım polisimiz kollektivdə gənclərə örnəkdir.***

*Fotolar və mətn Ü.Muradovundur*

# MARAQ DÜNYASI



### NİYƏ MAVİ RƏNGLƏ?

Qətərin paytaxtı Dohada asfaltı mavi rəngləyirlər. Bildirilir ki, bunun bir neçə səbəbi var.

Qətər isti ölkə olduğundan asfalt Günəş şüaları altında çox qızır. Qızmış asfalt örtüyü isə keyfiyyətini itirərək avtomobillər üçün də təhlükəli olur.

Hələlik sınaq məqsədilə həyata keçirilən layihənin müəllifi mühəndis Saad əl-Doseridir.

Müsbət nəticələr əldə edildikdən sonra bu texnologiyanı ölkədə tətbiq etmək planlaşdırılır.

### “BU SPARTADIR!”

ABŞ aktyoru Cerard Batler “300 spartalı” filmində səsləndirilən bu məşhur sözün necə yaranmasından danışıb. Batler bildirib ki, ucadan deyilmiş iki kəlmə onun improvizasiyasıdır.

Filmin rejissoru Zak Snayderin düşüncəsinə görə, Batlerin ifa etdiyi personaj - çar Leonid bu sözləri öz-özünə deməliymiş. Aktyor isə dublların birində onu haray çəkərək deyib.

Batler etiraf edir ki, çəkiliş qrupundan heç kəs bunu gözləmirmiş. Zak Snayder filmin final versiyasına məhz bu dublu daxil edib.

### VİKİNQLƏR İŞIQFORLARI DA “İŞĞAL” ETDİLƏR

Danimarkanın Orhus şəhərinin işıqforları vikinqlərin təsviri ilə təchiz edilib.

Hələlik 17 yeni işıqfor quraşdırılıb. İşıqforlarda adi işarələrin əvəzinə əllərində döyüş qalxanı və balta tutan vikinqlərin təsviri əks olunur.

Şəhər şurasının üzvü Buenyamin Simsektakimin sözlərinə görə, Orhus bununla şəhərin tarixi irsini vurğulayır. Qeyd edək ki, döyüşçülər buynuzlu dəbilqə olmadan təsvir edilib. Çünki şəhərin hakimiyyət orqanları vikinqlər tərəfindən “buynuzlu dəbilqə”dən istifadə faktının sübut olunmadığını hesab edir.

Qeyd edək ki, Orhus şəhəri vikinqlər tərəfindən hələ VIII əsrdə, Yutlandiya yarımadasının şərq sahilboyunda salınıb, yarandığı vaxtdan regionun iqtisadi və mədəni mərkəzinə çevrilərək məşhur limana malik olub. Hazırda o, Danimarkanın ikinci ən böyük şəhəridir.



### MİSİRİN DAMSIZ EVLƏRİ

Turistlər buradakı evləri damsız görəndə xeyli təəccüblənirlər. Yerli sakinlər isə bu cür evlər tikməkdə qərarlıdırlar.

Ölkədə isti iqlim şəraiti olduğundan və yağış nadir hallarda yağdığından belə evlərdə yaşamaq insanlar üçün daha rahatdır. Soyuq havada isə isti paltar geyinməklə kifayətlənirlər.

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

*Xəbər verildiyi kimi, vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi ilə 2017-ci ildə Daxili İşlər Nazirliyinin rəsmi veb saytında (www.mia.gov.az) yaradılaraq istifadəyə verilmiş xüsusi interaktiv pəncərə vasitəsi ilə vətəndaşlar adlarının mülki-hüquqi öhdəliklərin icrasından yayınan borclu kimi axtarışda, eləcə də sərhədkeçməyə məhdudiyyət siyahısında olub-olmaması barədə məlumat əldə edə bilərlər.*

*Bunun üçün DİN-in* **mia.gov.az (http://mia.gov.az/?//content/liability)** *saytına daxil olub qeyd edilən elektron xidmət (Ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış borclular barədə məlumatlar) seçilməli və açılan pəncərənin qrafalarına müvafiq şəxsi məlumatlar doldurulub təsdiq edilməlidir.*

*İnteraktiv pəncərədə axtarış iki variantda aparılmalıdır. Birinci variantda soyad, ad, ata adı və doğum tarixi qeyd edilməklə, digər variantda şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi və şəxsin doğum tarixi göstərilməklə daxil edilən məlumatın düzgünlüyünə əmin olmaq üçün vətəndaşlara hər iki variant üzrə axtarış aparmaq tövsiyə olunur.*

*Əgər şəxs axtarışdadırsa qırmızı rəngdə "Diqqət, siz borclu kimi axtarışdasınız!" xəbərdarlığı ekrana çıxır və həmin şəxs barəsində məlumatlar, o cümlədən müraciət etməli olduğu polis orqanı göstərilir.*

*Vətəndaş borcunu müvafiq qaydada ödədikdə barəsində olan məhdudiyyət aradan qalxır.*

*Şəxs axtarışa elan edilməyibsə ekranın aşağı hissəsində yaşıl rəngdə "Axtardığınız parametrlərə uyğun borclu barədə məlumat yoxdur" informasiyası verilir.*




**Daxili İşlər Nazirliyi**

# "Xəzri" sizi gözləyir!




**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2019-cu il - 31 may 2020-ci il tarixlərə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**16 sentyabr 2019-cu il - 31 may 2020-ci il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75.00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90.00 manat | 150.00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50 manat | |

**DİN rəhbərliyinin müvafiq göstərişinə əsasən, yeni dərs ilinin başlanması ilə əlaqədar bu il sentyabr ayının 15-dən oktyabrın 15-dək ölkə ərazisində «Diqqət, uşaqlar!» adı altında hərəkətin təhlükəsizliyi aylığı keçiriləcək.**

Əsas məqsəd uşaq və yeniyetmələrin iştirakı ilə yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində profilaktiki tədbirlərin gücləndirilməsi, habelə ümumtəhsil məktəblərində şagirdlərə təhlükəsiz davranış vərdişlərinin aşılanması və tədris prosesinin effektliyinin yüksəldilməsinə dövlət yol polisinin köməyinin artırılmasıdır.

# "Diqqət, uşaqlar!" aylığına start verilir

Göstərişə əsasən, uşaq və yeniyetmələrin iştirakı ilə baş vermiş yol-nəqliyyat hadisələrinin təhlili aparılaraq, onların səbəblərinin və şəraitin aradan qaldırılması üzrə konkret profilaktiki tədbirlər görülməlidir.Təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə, habelə uşaq və yeniyetmələrin toplaşdığı yerlərdə, onların hərəkət marşrutlarında yol şəraitinin yenidən müayinə olunması, hərəkətin təhlükəsiz təşkili nəzərə alınmaqla müvafiq işlərin, o cümlədən yol nişanlarının qoyulması, yararsızlarının yenilənməsi, nişanlama xətlərinin çəkilməsi və digər tədbirlərin həyata keçirilməsi DİN-in müvafiq orqanlarına tapşırılmışdır.

"Gürcüstanda patrul ekipajlarının sayı artırılacaq". Bu barədə Daxili İşlər naziri vəzifəsinə namizəd Vaxtanq Qomelauri parlamentdə çıxışı zamanı bildirib. Onun sözlərinə görə, yol hərəkəti qaydalarının pozulmasına nəzarətin gücləndirilməsi üçün mobil tətbiqin hazırlanması planlaşdırılır: "Mobil tətbiq vasitəsilə hər bir vətəndaş şahidi olduğu qayda pozuntusu ilə bağlı patrul polisinə məlumat verə biləcək".

V.Qomelauri qeyd edib ki, patrul polis xidmətlərinin əlçatan olmadığı rayonlarda mobil ekspress xidmət mərkəzlərinin yaradılması nəzərdə tutulub.

*****




Bu ilin əvvəlindən Rusiya Federasiyasında avtobusların iştirakı ilə baş verən yol qəzalarının statistikası açıqlanıb-3 minə yaxın yol-nəqliyyat hadisəsi. Nəticədə 120 nəfər həyatını itirib, 4.5 mindən çox insan xəsarət alıb.

Dövlət Yol Polisinin məlumatına görə, bu keçən ilin analoji dövrü ilə müqayisədə 2.6 faiz çoxdur. Bildirilir ki, sərnişindaşımada təhlükəsizlik prioritet məsələ olaraq qalır. Buna görə də bu istiqamətdə profilaktik tədbirlər və genişmiqyaslı yoxlamalar davam etdiriləcək.

*****

Fransada ailə zorakılığına qarşı mübarizədə elektron qolbaqlardan istifadə ediləcək. Bu barədə Ədliyyə naziri Nikol Belube məlumat verib. Onun sözlərinə görə, bu cür qolbaqlar qadınlara qarşı zorakılığa yol verən hazırkı və keçmiş həyat yoldaşlarına məcburi şəkildə taxılacaq. Qolbaq siqnal verməklə kişinin qadına yaxınlaşmasına imkan verməyəcək.

Ölkəyə 5-6 milyon avroya başa gələcək qolbaqlar qadınlara qarşı zorakılığın qarşısının alınması tədbirlərindən biri kimi 2020-ci ildən tətbiq ediləcək.

Qeyd edək ki, hazırda Fransada bu qolbaqlar yalnız qadınlara qarşı zorakılığa yol vermiş məhkum kişilərə tətbiq olunur. 2018-ci ildə Fransada indiki və keçmiş həyat yoldaşları tərəfindən 149 qadın öldürülüb. Bu il isə eyni səbəbdən hələlik 101 qadın ölüb.

*****

ABŞ-da ən iri mağaza şəbəkələrindən biri olan "Walmart"ın rəhbərliyi silah-sursat satışını məhdudlaşdırmağı qərara alır.

Şirkətin direktoru bəyanatında bildirib ki, hələlik, mağazanın anbarlarında hazırda mövcud olan ov tüfəngləri üçün döyüş sursatlarının ehtiyatları satılıb qurtarandan sonra tapançaların və onun güllələrinin satışı tamamilə dayandırılacaq. Qeyd edib ki, bu tədbirlər Amerika silah-sursat bazarında şirkətin payını azaldaraq indiki 20 faizdən 6-9 faizə endirəcək.

Bildirilib ki, iyulun 30-da Missisipi ştatının Sautheyvend şəhərində və avqustun 3-də Texas ştatının El-Paso şəhərində insanların kütləvi şəkildə atəşə tutulması nəticəsində 24 nəfər həlak olub. Ohayo ştatının Deyton şəhərində və Texas ştatının Odessa şəhərində insanların kütləvi şəkildə qətlə yetirilməsi də "Walmart" rəhbərliyinin bu qərarı üçün əsas səbəb olub.

*C.Natiq*

# Sentyabrın 4-dən 10-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 151 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 76 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 152, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 5, borclu şəxs qismində axtarışda olan 49 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 19 nəfər ölmüş, 9 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 101 fakt müəyyən edilmişdir.

# ELAN

"İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 mart tarixli Fərmanının icrası çərçivəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Bakı şəhər Baş Polis İdarəsinə bilavasitə tabe olan Bakı Metropolitenində Polis Şöbəsi vakant mülki işçi vəzifələrinə (polisə ictimai dəstək) xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə həqiqi hərbi xidmət keçmiş, yaşı 20-dən 25-dək, boyu 170 (qadınlar), 180 (kişilər) santimetr və yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, tam orta, orta ixtisas və ali təhsilli, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Qeyd edilən tələblərə cavab verən və işə qəbul olunan şəxslər polis orqanlarının rəhbərliyi ilə ictimai asayişin qorunması üzrə funksiyaların (polisə ictimai dəstək) yerinə yetirilməsinə cəlb olunacaq, xüsusi geyim forması ilə təmin ediləcəklər. Onlara Daxili İşlər Nazirliyinin mülki işçiləri üçün müəyyən edilmiş təminatlar şamil olunacaq.

İctimai asayişin qorunmasında 2 il əməkdaşlıq etmiş şəxslərə daxili işlər orqanlarında xidmətə qəbul zamanı üstünlük veriləcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

***Əlavə məlumat almaq istəyənlər Bakı Metropolitenində Polis Şöbəsinə (Zərgərpalan küçəsi 135. Metronun "Nizami" stansiyası) müraciət edə bilərlər.*** **Tel: (012) 490-02-36**

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti iş yoldaşları Fərid Əfəndiyevə əzizi

**ƏNVƏR RƏHMANOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin kollektivi Baş İnformasiya Kommunikasiya İdarəsinin əməkdaşı Fərid Əfəndiyevə əzizi

**ƏNVƏR RƏHMANOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30